# ƏDƏBİ YAŞANTILAR VƏ YA GÜNDƏLİKDƏN SƏTİRLƏR

*(Əvvəli ötən saylarımızda)*

**26 dekabr 1976.** Bazar günüdür. Səhər açılandan yağış çisənləyir. Bu il havalar bir qədər mülayim keçir. Hələ qar yağmayıb. Yağış da gec-gec yağır. Son günlərdə zəhlətökən xəzri də nadir hallarda əsir. Keçən il bu vaxtlar isə havalar belə deyildi, tez-tez yağış yağır, hava soyuyur, sərt küləklər əsirdi.

Bu gün V.İ.Lenin adına Mərkəzi şəhər kitabxanasının oxu zalında məhəbbət mövzusunda disput keçirildi. Tədbirdə sevimli şairlərimizdən Məmməd Araz və Söhrab Tahir iştirak edirdi. Əsas məruzəçi gənc şair Səyavuş İsmayılov idi. O, öz çıxışında bir sıra mühüm əxlaqi problemlərə toxundu, pul hərisi, var-dövlət düşkünü olan, Qərbi Avropa adətlərinin zərərliu cəhətlərini qəbul edən meşşan təbiətli, pozğun, əqidəsiz gəncləri amansız tənqid etdi. Onun dediklərindən:

-Belə gənclər ürəyin ülvi və müqəddəs duyğusu olan məhəbbətə oyuncaq kimi yanaşır, xoşbəxtliyi eyşişrətdə, kefdə-damaqda görürlər. Belələri adətən faydalı əməklə məşğul olmur, insanların taleyi və onların gələcək səadəti ilə qətiyyən maraqlanmırlar. Təəssüf hissi ilə qeyd etməliyik ki, bizim aramızda da belələri kifayət qədər çoxdur. Cəmiyyətdə artıq, gərəksiz adama çevrilən belə yararsız gənclər üçün onların valideynləri də bilavasitə məsuliyyət daşımalıdır, çünki məhz onlar övladlarının harın, qudurğan, azğın, pozğun böyüməsi üçün münbit şərait yaradırlar. Çox zaman rüşvətlə ələ keçirilmiş haram pullarlr yallanan bu cür parazit təbiətli gənclərin qəlbində həyata, cəmiyyətə, insana məhəbbətdən əsər-əlamət ola bilməz.

İstedadlı yaradıcı gənclərdən Eldar İbrahim, Həsən Əliyev, Loğman Məmmədov, Yusif Şəfi məhəbbət haqqında öz mraqlı fikirlərini sdöylədilər. Onlar məhəbbət mövhumunu yalnız mücərrəd məzmuhda izah etməklə kifayətlənməyərək, ona həm də ictimai don geyindirməyə çalışdılar. Şair Məmməd Araz məhəbbət mövzusundakı maraqlı fikirlərini tədbir iştirakçıları ilə bölüşdü və sonda bu mövzuda qələmə aldığı dərin məzmunlu şeirlərindən bir neçəsini söylədi.



**Bayram AFURCALI**

Kredo .- 2026.- 18 fevral (№07).- S.13.